(Əvvəli 4-cü səhifədə).

və ya 6.564,8 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 6.859,0 min manat proqnoza qarşı 9.871,7 min manat (143,9 faiz) və ya 3.012,6 min manat çox, yerli xərcləri 6.859,0 min manat proqnoza qarşı 6.561,9 min manat (95,7 faiz) icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 8.036,0 min manat proqnoza qarşı 11.600,2 min manat (144,4 faiz) və ya 3.564,2 manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən yalnız biri-aksiz vergisi üzrə proqnoz tapşırıq kəsirlə yerinə yetirilərək həmin gəlir üzrə büdcəyə 305,1 min manat az vəsait daxil olmuşdur. Digər 9 növ gəlirlər üzrə 3.317,8 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 3.012,7 min manat çox yerinə yetirilmişdir.

Ümumilikdə yerli gəlirlər üzrə daxil olmuş 21.494,8 min manat vəsaitdən 9.871,7 min manatı rayonun yerli gəlirlərinə, 22,9 min manatı qanunamüvafiq qaydada "Avtomobol yolları" Məqsədli Büdcə Fonduna, 11.600,2 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 93,0 min manat, elm xərcləri (arxiv) üzrə 0,7 min manat, səhiyyə xərcləri üzrə 18,4 min manat, məktəbəqədər təhsil xərcləri üzrə 5,7 min manat, mənzil təsərrüfatı xərcləri üzrə 2,8 min manat, kommunal təsərrüfatı xərcləri üzrə 77,4 min manat, sair xərcləri üzrə 99,1 min manat az olmaqla, ümumilikdə il ərzində 297,1 min manat təyinatdan az icra olunmuşdur.

Xərclərin təyinatdan az icra olunmasının səbəbi əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması (yerli icra hakimiyyəti orqanları və səhiyyə bölməsi üzrə bəzi ştat vahidlərinin vakant olması ilə bağlı) və bəzi xərclər üzrə faktiki icranın olmadığı (elektrik enerjisi, qaz, su və s.) üçün vasaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 1 yanvar 2019-cu il tarixə 3.309,7 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

İl ərzində bütün növ istehlakçı qruplar tərəfindən 118.423,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 9.941,7 min manata qarşı 9.191,1 min manat vəsait toplanaraq yığım planı 92,5 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 69,9 faiz, dövlət müəssisələri üzrə 84,5 faiz, ticarət xidməti üzrə 92,3 faiz, özəl sənaye üzrə 93,2 faiz, əhali qrupu üzrə isə 96,8 faiz olmuşdur.

10 kV-luq hava xəttinin 37,7 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. Bum, Vəndam, Nic, Mıxlıqovaq, Qaradeyin, Zarağan, Dizaxlı və Mirzəbəyli elektrik verilişi xətlərində 225 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 29,5 km məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 10/0,4 kV-luq transformator yarımstansiyalarında 15 ədəd 400 A-lik, 4 ədəd 250 A-lik ayrıcı quraşdırılmışdır. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 135 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər özünü daşıyan izolyasiyalı naqillərlə əvəz edilmiş, 1633 ədəd fiziki köhnəlmiş 0,4 kV-luq ağac dayaqlar yeni müasir tipli dəmir beton və dəmir dayaqlarla əvəz edilmişdir. 40 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədəli kabellər yenisi ilə əvəz edilmişdir. Əhali və qeyri əhali sektorunda 678 ədəd yeni sayğac quraşdırılmış, 4.437 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən ötən il ərzində 42.428,3 min kub/metr təbii qaz istehlak edilmiş, 6.331,1 min manata qarşı 6.040,5 min manat vəsait toplanaraq ümumi yığım məbləğinə 95,4 faiz əməl olunmuşdur. Həmin göstərici əhali sektoru üzrə 94,0 faiz, büdcə təşkilatları üzrə 94,4 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə 92,9 faiz, kommunal təşkilatlar üzrə isə 154,6 faiz təşkil etmişdir.

370 yeni abonentə təbii qaz verilərək əhali abonentlərin ümumi sayı 18.467-ə çatdırılmışdır. Xidmət sahəsi il ərzində istismara yararsız 7.596 p/m xətti yenisi ilə əvəz etmişdir. İşləməyən 275 sayğac əvəzlənərək dövlət yoxlamasına göndərilmişdir. Rayonun Mıxlıqovaq və Kötüklü kəndlərində qazlaşma işləri aparılmış, 1.082 mənzil sayğacla təmin edilmişdir.

Rayonun su-kanal idarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmişdir. Şəhərin Heydər Əliyev prospektində, Nizami Gəncəvi, İmadəddin Nəsimi, İsmayıl bəy, Məhəmməd Füzuli, Abbas Səhhət küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Zarağan kəndində yerləşən məcburi köçkün şəhərciyində 2 ədəd nasos dəyişdirilmiş, binalara yeni su xətti çəkilmiş və su sayğacları yenisi ilə əvəz olunmuşdur. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində ikinci mərhələ üzrə işlər davam etdirilir. Layihənin icrası ilə ələqədar indiyədək müxtəlif diametrli borularla 52.022 m su xətləri, 47.625 m kanalizasiya xətləri çəkilmiş, 1.390 su və 2.556 kanalizasiya birləşmələri verilmiş, 1.300 ədəd su sayğacı quraşdırılmışdır. İl ərzində 485,8 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, ümumi yığım 103 faiz, o cümlədən əhali sektoru üzrə 99,8 faiz, büdcə təşkilatları üzrə 100,0 faiz, kommersiya və digər qurumlar üzrə 105 faiz təşkil etmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 613 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 1.167 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 312 kub/metr qabion bəndi vurulmuş, 1.265 kub/metr daş-beton bəndi, 63 kub/metr şax bəndi cari təmir edilmişdir.

Rayon mənzil istismar və kommunal müəssisələr kombinatı il ərzində şəhər təsərrüfatına 358,4 min manat, ictimai yaşayış binalarına 52,9 min manat, idarə və müəssisələrə 95,2 min manat, kommersiya obyektlərinə və fərdi təsərrüfatlara 19,9 min manat olmaqla cəmi 526,4 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

10 nömrəli Yol İstismarı MMC tərəfindən rayon ərazisində il ərzində 1.369,6 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Rayon telekommunikasiya qovşağı 1.373,3 min manat taarif gəliri proqnozuna qarşı 1.392,4 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 101,4 faiz əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3.630 nömrə), 23 kənd EATS-i (8.354 nömrə), 2 mini EATS-i (64 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 12.050 nömrə təşkil edir. 1 kənd (2 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. İl ərzində şəhər və kənd əhalisinə 410 ədəd telefon çəkilmiş, 1.957 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 6.400 nəfər təşkil edir. Şəhər və kənd telefon şəbəkəsində 132 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Şəhərin "Gənclik" küçəsində 50 nömrə üçün yeni şəbəkə tikilmiş, Heydər Əliyev prospektində 30-a yaxın zədəli cütlüklər təmir olunmuşdur. Həzi Aslanov, 28 May küçələrində və Zarağan kənd xətt şəbəkəsində zədəli kabellər təmir edilmişdir. Hazırda Nic və Bum qəsəbə EATS-nin xətt şəbəkəsində cari təmir işləri davam etdirilir. Mıxlıqovaq kəndinə yeni asfalt yolun çəkilməsi ilə ələqədar 30 ədəd dəmir dirək basdırılmış, Əmirvan, Böyük Pirəli, Məlikli, Zalam, Uludaş, Həmzəli və Soltannuxa kəndlərində 1.310 metr zədəli kabellər dəyişdirilərək yenisi ilə əvəz edilmişdir. Vəndam qəsəbə EATS-də internet xidmətindən istifadə üçün 384 portluq yeni DSLAM avadanlığı quraşdırılmış, rabitənin fasiləsiz və dayanıqlı işləməsi üçün 2 qrup akkumlyator batareyası ilə təmin olunmuşdur.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 322,3 min manata qarşı 335,5 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 103,5 faiz yerinə yetirmişdir.

Dövlər Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində il ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 7.914,3 min manata qarşı 7.365,6 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, tapşırığa 93,1 faiz əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 2.038,5 min manata qarşı 1.970,7 min manat və ya 96,7 faiz, qeyri-büdcə təşkilatları üzrə isə 5.875,8 min manata qarşı 5.394,9 min manat və ya 91,8 faiz olmuşdur. İl ərzində 690 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 72 nəfər hüquqi, 618 nəfər isə fiziki şəxs olmuşdur. 1 yanvar 2019-cu il vəziyyətinə şöbədə 11.226 pensiya işi üzrə 11.289 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 25.393,1 min manat pensiya, 296,9 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiyanın məbləği 2.095,3 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 186 manat 64 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 19.205,0 min manatı subsidiyalar, digər hissəsi isə yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.962 hərəkətdə olan sosial müavinət, 528 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 385,3 min manatdır.

Hesabat dövründə rayonda tikinti-quruculuq sahəsində də işlər uğurla davam etdirilmişdir.

Belə ki, 2018-ci il ərzində Qəbələ şəhərində 120 yerlik körpələr evi-uşaq bağçasının və Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Bununla yanaşı şəhərin Heydər Əliyev prospekti 6 və 19 ünvanalrındakı ikimərtəbəli ictimai yaşayış binalarında, Muxtar Abduyev küçəsindəki 5 mərtəbəli yaşayış binasında, Zərifə Əliyeva adına parkda əsaslı təmir işləri başa çatdırılmış, Heydər Əliyev prospekti 28 və 30 ünvanlardakı yaşayış binalarının dam örtükləri əsaslı təmir olunmuş, Hacıalılı kənd uşaq bağçasında təmir işləri aparılmış, şəhərin Əhməd Cavad, Məhəmməd Qəribov, Əhmədağa Bağırov, İsmət Qayıbov, Mirzə Fətəli Axundov, Arif Haqverdiyev və Seyid Əzim Şirvani küçələrində 23.880 kv.m asfalt örtük vurulmuşdur. İl ərzində rayonun Laza kəndində 80 yerlik ümumi orta və Zərgərli kəndində 56 yerlik modul tipli ibtidai məktəb binaları tikilib istifadəyə verilmişdir. Hazırda rayonun Şəfili kəndində 20 yerlik ibtidai, Qaradeyin kəndində 80 şagird yerlik modul tipli tam orta məktəb binalarında quraşdırma, Vəndam qəsəbəsində 2 nömrəli məktəb üçün isə 360 yerlik yeni məktəb binasında tikinti işləri davam etdirilir.

Rayonun Mıxlıqovaq kəndində içməli su təchizatı sisteminin qurulması layihəsi həyata keçirilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə, Uludaş, Tikanlı kəndlərinin və Bum qəsəbəsinin hər birində bir ədəd olmaqla 8 ədəd subartezian quyusunda qazma işləri başa çatdırılmışdır. Şəhərimizdə 160 çarpayılıq xəstəxana kompleksinin tikintisi, Dəmiraparan çayının sahilində Qəbələ şəhərinin sel sularından və daşqınlardan mühafizəsi məqsədilə aparılan sahilbərkitmə işləri davam etdirilmiş, 43 kilometrlik Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci il ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı da əhəmiyyətli dərəcədə artmışdır. Beynəlxalq əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılmış və bir çox beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Belə ki, fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib, onlara udi xalqının tarixi ilə bağlı məlumatlar verilib. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri Yarışları, iyun ayında Vəndam qəsəbəsində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı, Heydər Əliyev Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici" VI Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilmişdir.

Hesabat dövründə bir sıra dövlətlərin səfirləri tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişlər. Səfər çərçivəsində onlar rayonun tarixi yerləri və sənaye müəssisələri ilə yaxından tanış olmuşlar.

Bununla yanaşı iyun ayının 20-22 tarixlərində RİH başçısının rəhbərlik etdiyi nümayəndə heyəti Polşanın Qnezno şəhərində keçirilən Azərbaycan Respublikasında müstəqilliyin əldə edilməsi və Polşa Respublikasının müstəqilliyinin bərpa olunmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak etmişdir.

Səfər zamanı nümayəndə heyəti Qnezno şəhərinin bir sıra istehsal müəssisələri, bölgənin tarixi-mədəni yerləri və turizm sektoru ilə yaxından tanış olmuşdur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və yaxından köməkliyi ilə rayonumuzda keçirilən beynəlxalq musiqi və kino festivalları, rəsm sərgiləri, idman yarışları və digər bu kimi tədbirlər öz tarixi şöhrətinə qovuşmaqda olan Qəbələnin həm də dünyanın cəlbedici turizm məkanına çevrilməsi istiqamətində çox böyük əhəmiyyət kəsb edir. Burada keçirilən beynəlxalq tədbirlərə dünyanın müxtəlif ölkələrindən görkəmli musiqiçilər, musiqi kollektivləri və ifaçılar qatılır. Eləcə də Qəbələdə təşkil olunan beynəlxalq rəsm sərgilərində iştirak edən müxtəlif ölkələrin ən məşhur fırça ustaları yaratdıqları unikal təsviri incəsənət nümunələrini, idmançılar isə bu mötəbər yarışlarda öz ustalıq-

(Ardı 6-cı səhifədə).